# Türkdilli şairələrə "Novruz çiçəkləri" hədiyyəsi



**Martın 18-də Azərbaycan Yazıçılar Birliyinin (AYB) "Natəvan" klubunda kərkük şair Şəmsəddin Kuzəçinin tərtibçisi olduğu "Novruz çiçəkləri" antologiyasının təqdimat mərasimi keçirildi. Adalet.azxəbər verir ki, təqdimat mərasimini yazıçı, professor Qəzənfər Paşayev açaraq tədbir iştirakçılarını qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etdi. Bildirdi ki, Novruz bayramını xalqımız həmişə sevinclə qarşılayıb. Hətta kəskin Sovet rejimi belə bu bayramı millətimizin təfəkküründən silə bilməyib. Professor qeyd etdi ki, Novruz təkcə bayram olmaqla bitmir, o həm də özündə fəlsəfi anlam daşıyan su, od, hava və torpaq ünsürlərini birləşdirir. Qəzənfər Paşayev Azərbaycan şairələrinin şeirlərindən ibarət toplunun bütün türk dünyası xanımlarına Novruz hədiyyəsi olduğunu vurğuladı. Daha sonra Şəmsəddin Kuzəçinin yaradıcılığı haqqında məlumat verdi. Bildirdi ki, Şəmsəddin Kuzəçi təkcə şair deyil, həm də tədqiqatçı alimdir. Bu günə qədər türk dünyası üçün gördüyü işlərə görə, 200-ə qədər təşəkkürnamə və mükafatlar alıb. İndiyədək onun 25 kitabı çap olunub.**

Daha sonra "İraq-türkmən Kültür Mərkəzi"nin sədri, şair Mustafa Ziya çıxış edərək Azərbaycan xalqına Novruz təbriklərini çatdırdı, Bakıda olmaqdan məmnunluğunu vurğuladı. Türk xalqlarının mədəni irsini araşdıran Mustafa Ziya kərkük və Azərbaycan türklərinin oxşar folklorundan nümunələr gətirdi.

Tədbirdə çıxış edən millət vəkili Qənirə Paşayeva bütün türk xalqlarının daim bir arada olmasının vacibliyini qeyd etdi. Bildirdi ki, Azərbaycanla, Kərkük türkləri arasına zaman girib onları ikiləşdirdi, amma biz qəlbən həmişə birik, bundan sonra da birliyimiz davam edəcək.

"Atatürk" mərkəzinin şöbə müdiri, şair, publisist Əkbər Qoşalı da türk xalqlarının qardaş münasibətlərindən danışdı. Bildirdi ki, Şəmsəddin Kuzəçinin müəllifi olduğu digər ədəbiyyat nümunələri kimi, bu kitab da təkcə Azərbaycan və Türkiyə üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyətə malikdir.

Sonda müəllif iştirakçılara şəxsi imzası olan kitabları hədiyyə etdi. Mərasimdə eyni zamanda, Şəmsəddin Kuzəçinin 50 illik yubileyi münasibətilə və xidmətlərinə görə mükafat təqdim edildi.

Qeyd edək ki, 663 səhifədən ibarət olan bu antologiyada 17 Azərbaycan şairəsinin şeiri yer alıb.Antologiyada azərbaycanlı şairlərdən Qənirə Paşayeva, Firuzə Məmmədli, Məlahət Yusifqızı, Həyat Şəmi, Fərqanə Mehdiyeva, Rəsmiyyə Sabir, Adilə Nəzərova və başqalarının şeirlərinə rast gəlmək olar.

Ümumilikdə isə 100 türkdilli şairə ölkəsini bu kitabda təmsil edib.

**Şəfiqə Şəfa**